# EHTİYAT AKKREDİTİVİ

Ehtiyat akkreditivi (standby letter of credit) – əmr verən şəxs (alıcı, qəbul edici, sifarişçi) öz müqavilə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə və bəhrələnən şəxs (satıcı, təchizatçı, icraçı) yazılı ödəniş tələbnaməsi təqdim etdiyi təqdirdə bankın (emitent bank) əmr verən şəxsin əvəzinə bəhrələnən şəxs qarşısında yazılı öhdəliyidir.

Bank Respublika tərəfindən buraxılan ehtiyat akkreditivi birinci sinif xarici bank tərəfindən təsdiq edilə bilər və bunun sayəsində bəhrələnən şəxs həm Bank Respublika-dan, həm də birinci sinif xarici bankdan ikiqat ödəniş zəmanəti əldə edir.

### EHTİYAT AKKREDİTİVİ NƏYƏ GÖRƏ BURAXILIR?

Ehtiyat akkreditivi əksər hallarda əmr verən şəxsin bəhrələnən şəxs qarşısında öhdəliklərinin yerinə yetirilməsinə zəmanət verilməsi üçün buraxılır. Ehtiyat akkreditivi müəyyən müddətə (əksər hallarda həmin müddət müqavilənin qüvvədə olma müddətinə və ya müqavilə üzrə malların təchiz edilməsi müddətinə bərabər olur) və əmr verən şəxsin ərizəsi əsasında və bəhrələnən şəxsin razılığı ilə həmin akkreditivə vaxtından əvvəl xitam verilə bilər (və ya onun müddəti uzadıla bilər).

Ehtiyat akkreditivi əmr verən şəxsin bəhrələnən şəxsin hesabına müntəzəm ödənişlər icra etməsini nəzərdə tutan müqaviləyə əlavə olaraq buraxılır. Müqavilə üzrə ödənişlər əmr verən şəxs tərəfindən ehtiyat akkreditivinin buraxılmasından asılı olmayaraq icra edilir.

### ƏMR VERƏN ŞƏXSİN İMTİYAZLARI

1. Malı ilkin ödəniş olmadan əldə etmək imkanı
2. Malı ödənişi təxirə salmaqla əldə etmək imkanı
3. "Zəmanət" hadisəsi baş verdiyi və ödənişi vaxtında icra etmək mümkün olmadığı təqdirdə ehtiyat akkreditivini buraxan bankın vəsaitlərindən müvəqqəti istifadə imkanı
4. Ehtiyat akkreditivini buraxan bankın və ya birinci sinif xarici bankın verdiyi zəmanət əsasında bəhrələnən şəxs qarşısında öhdəliklərin yerinə yetirilməsi
5. Bəhrələnən şəxs qarşısında öhdəliklər yerinə yetirilmədiyi təqdirdə ehtiyat akkreditivinin qüvvədə olma müddətinə vaxtından əvvəl xitam verilməsi imkanı.

### BƏHRƏLƏNƏN ŞƏXSİN İMTİYAZLARI

1. Təchiz edilmiş mal üçün emitent bank və xarici bank tərəfindən verilən ikiqat ödəniş zəmanəti
2. Əmr verən şəxs öz müqavilə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə ehtiyat akkreditivi üzrə vəsaitlərin tez əldə edilməsi
3. Ödəniş anına qədər malın dəyərinin ödənilməsinə 100% zəmanət verilməklə malı yükləyib göndərmək imkanı

### EHTİYAT AKKREDİTİVİ TƏKLİF EDİN

### TƏSDİQLƏMƏNİN ÜSTÜNLÜKLƏRİ

Birinci sinif xarici banklar tərəfindən təsdiqlənən ehtiyat akkreditivləri bəhrələnən şəxsə təchiz edilmiş mallar (yerinə yetirilmiş işlər, göstərilmiş xidmətlər) üçün ödəniş barəsində 100%-lik zəmanət verir. Bəhrələnən şəxs öz risklərini tam minimuma endirir və malı təchiz etməyə hazır olur.

### BU, TEZ VƏ RAHATDIR

Ehtiyat akkreditivi ərizə (A4 formatlı standart blank) əsasında açılır və bir (1) bank günü ərzində birinci sinif xarici banka (və ya bəhrələnən şəxsin bankına) göndərilir və sonuncu bəhrələnən şəxsə ehtiyat akkreditivi haqqında avizo göndərir.

Əmr edən şəxs arzu etdiyi təqdirdə ehtiyat akkreditivi kağız daşıyıcı üzərində əmr verən şəxsin nümayəndəsinə verilə, kuryer çatdırma xidməti vasitəsilə bəhrələnən şəxsin bankına göndərilə və ya Teleks /SVİFT sistemi vasitəsilə nəql edilə bilər. Bütün dünya üzrə geniş müxbir banklar şəbəkəsi Bank Respublika-nın ehtiyat akkreditivlərini bir neçə dəqiqə ərzində bilavasitə bəhrələnən şəxsin bankına göndərməsinə imkan verir.

### BU, BAHA DEYİL

Əmr verən şəxs üçün vahid komissiya ehtiyat akkreditivinin açılması üçün cavabdehdir, bəhrələnən şəxs üçün isə vahid komissiya avizo göndərilməsi və (lazım olduqda) ehtiyat akkreditivi üzrə ödənişin icrası haqqında tələbnamənin araşdırılması üçün cavabdehdir.

### BU, MÜASİRDİR

Beynəlxalq ticarət palatasının həyata keçirdiyi son tədqiqatlar xarici ticarət sövdələşmələri üzrə hesablaşmalar sahəsində ehtiyat akkreditivlərinin populyarlığının dayanmadan artdığını təsdiq edir. Beynəlxalq hesablaşmaların bu növünün istifadəsinin sadəliyi, şəffaflığı və asanlığı sizin öz xarici tərəfdaşlarınızla münasibətlərinizi keyfiyyətcə yeni səviyyəyə yüksəldir.

### PULSUZ MƏSLƏHƏT XİDMƏTLƏRİ

Beynəlxalq biznesin inkişafı idarəsinin əməkdaşları beynəlxalq hesablaşmaların müəyyən növünün

Ehtiyat akkreditivi o hallarda istifadə olunur ki, tərəflərdən biri sövdələşmə əsasında digər tərəfin müqavilə öhdəliklərini yerinə yetirməsinə maksimal zəmanət əldə etməyi arzu etsin.

**BEYNƏLXALQ TANINMA**

Zəmanətlərdən (bunlar bir qayda olaraq zəmanətləri verən ölkənin qanunvericiliyi ilə tənzimlənir) fərqli olaraq ehtiyat akkreditivləri icrası icbari olan Sənədli akkreditivlər üçün vahid qaydalar və adətlər (Beynəlxalq ticarət palatasının 600 nömrəli nəşri) adlı beynəlxalq sənəd ilə tənzimlənir.

istifadəsini nəzərdə tutan xarici ticarət müqavilələrinin tərtib edilməsi /düzəldilməsinə dair pulsuz məsləhət xidmətləri həyata keçirir. Lazım olduqda Bank Respublika-nın əməkdaşları bəhrələnən şəxslə ehtiyat akkreditivi haqqında danışıqlar apara bilər. Bank Respublika-nın buraxdığı hər bir ehtiyat akkreditivinin mətni mütləq qaydada bəhrələnən şəxsin bankı /təsdiqləyən bank ilə razılaşdırılır. Biz sizin suallarınıza cavab verməyə şad olacağıq!

**«BANK RESPUBLİKA» ASC**
**Beynəlxalq Əlaqələr Departamenti**
**Azərbaycan AZ1000, Bakı şəhəri, Xaqani küçəsi, ev 21**
**Telefonlar: +994 12 598 08 00 (Elnarə Sərxanova), Faks: +994 12 598 08 80, elektron poçtunun ünvanı: ElnaraS@BankRespublika.az**